Zəfər tarixinin xronikası : 9 oktyabr 2020-ci il // Xalq qəzeti. - 2021. - 9 oktyabr. - № 217. - S. 5.

Həmin gün:
– Prezident İlham Əliyevin "CNN International" televiziya kanalının "The Connect World" verilişində müsahibəsi yayımlanıb;
– Prezident İlham Əliyev müzəffər Azərbaycan Ordusunun bir neçə yaşayış məntəqəsini işğaldan azad etdiyini bəyan edib. Bu münasibətlə bütün Azərbaycan xalqına təbriklərini çatdıran dövlətimizin başçısı düşməndən təmizlənən yaşayış məntəqələrinin adlarını bildirib: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracalı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi. Azərbaycan Prezidenti bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsinin tarixi qələbəmiz olduğunu vurğulayıb.
–Fransa Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Dövlət başçıları tərəfindən müharibə ilə bağlı yaranan vəziyyət müzakirə olunub.
– Qoşulmama Hərəkatının videokonfrans formatında keçirilmiş nazirlər səviyyəsində görüşünün iştirakçıları xüsusi bəyanat qəbul ediblər. Bəyanatda Qoşulmama Hərəkatının üzv dövlətləri Ermənistan–Azərbaycan münaqişəsində hərbi əməliyyatların yenidən başlanmasını şiddətlə qınayıb, insan itkisi və mülki əhaliyə təsirinə görə təəssüfləniblər. Qoşulmama Hərəkatının nazirlər görüşündə Ermənistan ilə Azərbaycan arasında münaqişənin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinə dəstək ifadə olunub;
– Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin "Haber Global" televiziyasına müsahibəsində Azərbaycanın haqq işini dünyaya çatdırmaqda önəmli və səmərəli rol oynayan Türkiyə mətbuatına təşəkkür edib: " Türkiyəli jurnalistlər Dağlıq Qarabağda cəbhədən və döyüş meydanından xəbərləri operativ surətdə dünyaya çatdırırlar. Təəssüf ki, bu xəbərləri hələ də qulaqardına vuranlar var. Azərbaycan tolerant ölkədir. Biz bütün dinlərin nümayəndələrinə hörmətlə yanaşırıq. Lakin erməni mətbuatı bu mövzuda yalan xəbərlər yayır. Ermənilər, həmçinin dünya xristianlarının dini hisslərindən də istifadə edirlər. Halbuki ermənilər Azərbaycanın məscidlərini dağıdıblar, hətta dini ibadət yerlərində heyvan saxlayırlar.
Döyüşlər ordumuzun üstünlüyü ilə davam edir
Bütün cəbhə boyu gərgin döyüşlər davam edir.
Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıb. Görülən tədbirlər nəticəsində düşmən qoşunları arasında idarəetmə və qarşılıqlı əlaqə itib, bölmələri arasında nizamsızlıq yaranıb, şəxsi heyətinin intizamı pozulub, döyüş mövqelərinin tərk edilməsi kütləvi hal alıb.
Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, dünən həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanıb, alayın

artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilib.
Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilib. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilib və yaralanıb.
Dünən gün ərzində və ötən gecə ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.
Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.
Ermənistan hərbi cinayətlərini dayandırmır
Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 9-da saat 17:00-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.
Baş Prokurorluğun məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 31 nəfər həlak olub, 168 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1091 ev, 143 mülki obyekt və 45 çoxmənzilli yaşayış binası yararsız vəziyyətə düşüb.
Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutub.
Vətən müharibəsi dünya mətbuatında
– Böyük Britaniyanın nüfuzlu "The London Post" qəzetində Ermənistan-Azərbaycan münaqişəsinə dair məqalə dərc olunub.
– Fransanın "RT France" televiziya kanalında Ermənistan–Azərbaycan müharibəsində ölkəmizin haqlı mövqeyindən danışılıb;
– İtaliyanın "L'Opinione" qəzetində italyan jurnalist Domeniko Letisiyanın müəllif olduğu "Paşinyanın avtoqolu: Azərbaycana qarşı müharibə" sərlövhəli məqalə dərc edilib. Məqalədə sentyabrın 27-dən başlayaraq Ermənistanın Azərbaycana qarşı hücumları ilə başlayan fasiləsiz döyüşlər zamanı ölkəmizin mülki əhalisinin və infrastrukturunun atəşə məruz qaldığı bildirilib.
"Xalq qəzeti"